

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 127 (23.038)

*11 iyul 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

İyulun 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılayıb.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.



## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasının çağırılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

### Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyası 2018-ci il iyul ayının 14-də saat 11[00]-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları

2. Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

3. "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 iyul 2018-ci il*

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyində Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyi tərəfindən yay təlimlərinə start verilib.***

## Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyi tərəfindən yay təlimlərinə start verilib



Təlimi giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev iştirakçılara tədbir haqqında geniş məlumat verərək bildirib ki, ötən ay "Sosial şəbəkə akademiyası" layihəsi çərçivəsində gənclər arasında sosial şəbəkələrin düzgün istifadəsi məsələsi haqqında təlim keçirilib, bu ay isə gənclərin asudə vaxtının səmərəli təşkili istiqamətində yay təlimləri nəzərdə tutulub. Cəbi Quliyev qeyd edib ki, təlimlər 3 istiqamətdə – "İşgüzar etiket", "Təqdimat bacarıqlarının inkişafı" və "Vaxtın düzgün istifadə edilməsi" mövzularında olacaqdır.

Daha sonra təlimçi Hüseyn İmanov təlim iştirakçıları ilə işgüzar görüşlər, jest və mimikalar, əl hərəkətləri, işgüzar yeməklər və səfərlər haqqında müəyyən bilikləri paylaşıb. Təlimdə slaydlarla yanaşı, müxtəlif videoçarxlar nümayiş etdirilib, təlim iştirakçıları arasında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, təlim iki gün davam edəcək. Tədbirin ikinci günündə təlimdə fəal iştirak edən gənclər Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyi tərəfindən hazırlanmış sertifikat və müxtəlif hədiyyələrlə təltif olunacaqlar.

**Xəbərlər şöbəsi**

## Dünya Bankı Qrupu Azərbaycanda nağdsız ödənişləri dəstəkləyəcək layihəyə Naxçıvan Muxtar Respublikasından başlayacaq



*"İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi tərəfindən maliyyələşdirilən layihə ilə yaradılacaq yeni nağdsız ödəniş infrastrukturu sakinlərə mobil telefonlardan istifadə edərək maliyyə əməliyyatları, o cümlədən faktura ödənişlərini və pul köçürmələrini həyata keçirməyə imkan verəcək. Belə imkanların mövcud olması qloballaşan dünyaya inteqrasiya üçün xüsusilə önəmlidir".*

Bu fikirlər iyulun 10-da Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində "Naxçıvan Muxtar Respublikasında elektron və rəqəmsal maliyyə xidmətləri pilot layihəsi"nə həsr olunmuş tədbirdə səsləndirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Səbuhi Məmmədov bildirib ki, müasir iqtisadi inkişafın mühüm tələblərindən biri elektron ödənişlərin həcminin daha da artırılması və nağdsız hesablaşmaların miqyasının genişləndirilməsidir. Çünki nağdsız hesablaşmalar pul dövriyyəsini daha da sürətləndirməklə bu sahədə çevik idarəetmənin həyata keçirilməsinə və şəffaflığa imkan yaradır. Bu baxımdan muxtar respublikamızda əhaliyə müasir səviyyəli keyfiyyətli bank xidmətlərinin göstərilməsi üçün elektron bankçılıq sahəsində fəaliyyətin daha da genişləndirilməsi həyata keçirilən prioritet tədbirlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, hazırda "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası uğurla davam etdirilir.

Qeyd olunub ki, haqqında bəhs olunan layihə muxtar respublikada nağdsız və rəqəmsal ödənişləri gücləndirmək səylərinin bir hissəsi olaraq maliyyə sektorunun inkişafını sürətləndirməklə yanaşı, əhalinin rahatlığının təmin olunmasına da öz töhfəsini verəcək.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov bildirib ki, hazırda muxtar respublika informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində yeni inkişaf mərhələsini yaşayır. Ötən müddət ərzində muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulub, Naxçıvanın tranzit telekommunikasiya imkanları genişlənib. Muxtar respublika üzrə fiber-optik kabel xətlərinin ümumi uzunluğu 1570 kilometrə yaxındır. Bu da diyarımızda rabitə əlaqələrinin kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında əvəzsiz rola malikdir.

Qeyd olunub ki, nazirliyin tabeliyində fəaliyyət göstərən "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti hazırda muxtar respublikanın ən ucqar yaşayış məntəqələrində də əhaliyə müasir poçt xidmətləri təqdim edir. 4-cü nəsil mobil rabitə sistemi məlumatların alınması və ötürülməsi üçün özündən əvvəlki sistemlərlə müqayisədə daha yüksəksürətli və genişzolaqlı şəbəkələrə çıxış imkanına malikdir.

Beynəlxalq Maliyyə Korporasiyasının Avropa və Mərkəzi Asiya üzrə baş meneceri Yesper Kyaer bildirib ki, bu layihənin həyata keçirilməsində məqsəd Azərbaycanın hər bir bölgəsində yaşayan insanlar üçün maliyyə xidmətlərini əlçatan etməkdir. Birgə səylərimiz Naxçıvan sakinlərinə ödənişləri daha rahat həyata keçirmək üçün şərait yaratmaq və nəticədə, maliyyə xidmətlərinə çıxışı asanlaşdırmaq məqsədi daşıyır. Həyata keçiriləcək layihəyə yerli hökumətin dəstəyi bu sahədə işlərin keyfiyyətlə və vaxtında icra olunacağına böyük ümidlər yaradır.

İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin Cənubi Qafqaz üzrə direktor müavini Simana Haeberi bildirib ki, bu, mənim Naxçıvana ikinci gəlişimdir. Bundan əvvəl təmsil olunduğumuz qurum Naxçıvan Muxtar Respublikasında tarixi kəhrizlərin bərpa olunmasında uğurla iştirak edib.

Sonra Naxçıvan Muxtar Respublikasında nağdsız zona yaradılması üzrə pilot layihənin icrasına dair Beynəlxalq Maliyyə Korporasiyası və Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Qeyd edək ki, Dünya Bankı Qrupunun üzvü olan Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən icra olunan "Elektron və rəqəmsal maliyyə xidmətləri" layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birgə nağdsız ödənişlər üzrə müvafiq təlimatlar işləniləcək. Layihə muxtar respublikada mobil ödənişlər üçün şərait yaratmaq məqsədilə məlumat emalı mərkəzlərini və mobil operatorları cəlb edərək nağdsız ödənişlər sahəsində Azərbaycanı regionun lider ölkəsinə çevirəcək.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikası 1995-ci ildən Beynəlxalq Maliyyə Korporasiyasının üzvüdür.

✍ **Səbuhi HƏSƏNOV**

## Bu ilin ötən dövründə muxtar respublikada 25 layihə üzrə istehsal sahəsi yaradılıb

2018-ci ilin ötən dövründə muxtar respublikada makroiqtisadi sabitlik qorunub saxlanılmış, özəl bölmənin inkişafına əlverişli şərait yaradılmış, 25 layihə üzrə istehsal sahəsi istifadəyə verilmişdir. Kəndlərdə müasir infrastrukturun yaradılması və istehsal olunan məhsulların sərbəst bazara çıxarmaq imkanları ailə təsərrüfatlarının inkişafı üçün əlverişli şərait yaratmışdır. Cari ilin ötən dövründə 12 ailə təsərrüfatına 145 min manatdan artıq maliyyə dəstəyi göstərilmişdir.

Özəl sektorun inkişafı və biznes fəaliyyəti üçün əlverişli mühitin yaradılması qarşıya qoyulan əsas vəzifədir. 2018-ci ilin 6 ayı ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən sənaye, kənd təsərrüfatı və xidmət sahələri olmaqla, ümumilikdə, 23 layihənin maliyyələşməsinə 5 milyon 735 min manatdan artıq kredit verilmişdir. Daxili bazarın qorunması, antiinflyasiya tədbirlərinin gücləndirilməsi və yerli istehsalın stimullaşdırılması istiqamətində də tədbirlər davam etdirilmiş, 2728 çeşiddə ərzaq və qeyri-ərzaq məhsullarının qiymətləri təhlil olunmuş, qabaqlayıcı tədbirlər nəticəsində süni qiymət artımına yol verilməmişdir. Bu dövrdə 1654 halda ərzaq məhsullarından nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasında təhlil edilmişdir.

"Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən dövlət büdcəsi vəsaiti hesabına maliyyələşən 46 müəssisənin 250 çeşiddən artıq ərzaq və qeyri-ərzaq məhsulları ilə keyfiyyətli təchizatı təmin edilmiş, 78 ailə təsərrüfatından və 24 istehsal topdansatış müəssisəsindən 707 min 346 manat dəyərində məhsul satın alınmışdır. Naxçıvan Biznes Mərkəzi tərəfindən muxtar respublikada xalq yaradıcılığı sahələrinin inkişafı, sənətkarların fəaliyyətinin stimullaşdırılması və iş şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, 722 adda əl işi və sənət əsəri qəbul edilmiş, 171 adda əl işinin satışı həyata keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

Ailə təsərrüfatı

# Zəhmətsevərliyi və mənəviyyatı ilə seçilən nümunəvi arıçı ailəsi

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın giriş hissəsində oxuyuruq: “Arıçılıq iqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsidir. Muxtar respublikanın əlverişli təbii iqlim şəraiti, zəngin yem ehtiyatları bazası bu sahənin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır”.***



Muxtar respublikada arıçılığın inkişafı, eləcə də bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Belə ki, arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi keyfiyyətli məhsul istehsalına və bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaradıb.

Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə muxtar respublikada arıçılıqla məşğul olan sahibkarlar üçün geniş imkanlar açılıb. Bu gün arıçılar onlara göstərilən bu qayğıdan bəhrələnməkdədirlər.

Şahbuz rayonunun Sələsüz kəndində də belə bir arıçı ailəsi var: Abbas və Qalina Məmmədovların ailəsi. Tərəflərdən birinin azərbaycanlı, digərinin isə rus olduğu bu ailənin qurulması haqqında qısa bir məlumat verək. Abbas, qardaşı Etibar (Etibar Məmmədov bu gün muxtar respublikanın tanınmış arıçılarındandır) və Qalina 1988-1993-cü illərdə Rusiya Federasiyasında Kənd Təsərrüfatı İnstitutunda oxuyublar. Etibarla Qalina institutun Zoomühəndislik, Abbas isə Elektrik mühəndisliyi fakültəsində təhsil alıblar. Elə Abbasla Qalinanın tanışlığı da buradan başlayıb. Onlar 1995-ci ildə ailə qurub orada yaşayıblar. 2001-ci ildə isə Naxçıvana köçüblər. Qeyd edək ki, Azərbaycan vətəndaşı olmaq üçün müraciətindən sonra Qalina Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 19 mart tarixli Sərəncamı ilə vətəndaşlığa qəbul edilib. Elə arıçılıq təsərrüfatları ilə tanış olub onlarla söhbət etmək üçün evlərinə gedəndə Qalinanın ilk söhbət açdığı məsələ də bu oldu: “Həyat yoldaşım, oğlum, qızım Azərbaycan vətəndaşıdır. Mən sanki onlardan kənarda qalmışdım. Burada yaşadığım müddətdə həmişə azərbaycanlılardan səmimiyyət, mehribanlıq görmüşəm. Elə ona görə də bu ölkənin vətəndaşı olmaq istədim və çox minnətdaram ki, mənim istəyim nəzərə alındı”.

Naxçıvana gələnədək Abbas Rusiyada meşədən tutduğu 1 arı ailəsi ilə arıçılığa başlayır. Bu işdə Qalina da ona yaxından kömək edir, çünki Qalinanın qardaşı da məşhur arıçı olduğu üçün onun bu işdə səriştəsi varmış. Elə yaratdıqları arıçılıq təsərrüfatında bütün işlərə də Qalina həyat yoldaşı ilə birgə nəzarət edir.

Şahbuza köçəndən sonra isə qardaşı Etibar arıçılıqla məşğul olmaları üçün onlara 15 arı ailəsi verir. Bu barədə Abbas Məmmədov deyir: “Gərək arını bilsən kimdən alırsan. Hər kəsdən alınan arını artırmaq olmur. Həm də arı alanda onu satan qiymətdə nə desə, onu verməlisən. Bu alqı-satqıda ki halallıq olmadı, heç arıçılığa başlama. Çünki əlin boş qalar”.

Beləliklə, onlar ildən-ilə arı ailələrinin sayını artırmaqla hazırda 105-ə çatdırıblar. Ailə arıçılıqdan yaxşı gəlir əldə edir. Hər il 600-700, bəzən də 1000 kiloqram bal satır, bundan əlavə, arıçılıq məhsulları olan bərəmum, arı südü, çiçək tozu, güləm, hətta mum vərəqini də özləri istehsal edirlər. Qalina gəlirləri barədə maraqlı söhbət etdi: “Biz istəsək, daha artıq bal istehsal edə bilərik. Lakin məhsul vaxtı balı pətəklərdən tamamilə götürüb arıları ac buraxmırıq. Çünki onlar yalnız bol yem görəndə çoxlu yumurta qoyurlar. Arı elə bir möcüzəli varlıqdır ki, o heç vaxt səhv etmir, əksinə, sənin səhvlərini düzəldir, səni öyrədir. Buna görə də biz hər pətəkdə ən azından 6 kiloqram bal saxlayırıq, onu başqa şirə ilə əvəz etmirik. Erkən yazda isə pətəklərə tənzifə hopdurulmuş bal qoyuruq. Bu halda arıların gözü tox olur, onlar yaxşı işləyirlər. Ona görə də istehsal etdiyimiz bal keyfiyyətlidir, təmizdir. Özümüz isə rahatıq ki, halalımıza haram qatmırıq”.

Sələsüz aran kəndidir. Burada arıçılıqla məşğul olmaq bir qədər çətindir. Bu barədə isə Qalina belə dedi: “Mən zoomühəndis olduğum üçün arıların nə vaxt yaylağa köçürülməsinə, hansı vaxtda nə kimi dərmanlardan, vitaminlərdən istifadə edilməsinə xüsusi nəzarət edirəm. Burada havalar tez isinir. Ona görə də arıları may ayının axırları Badamlı qəsəbəsindəki “Şorsu” deyilən yerə, iyun ayında isə dağa – Cici yurduna köçürürük. Avqust-sentyabr aylarında isə yenidən kəndə qaytarırıq”.

Ailə başçısı Abbas Məmmədov arıçılara göstərilən dövlət qayğısından da danışdı bu diqqətə və yaradılan şəraitə görə minnətdarlığını bildirərək dedi ki, vaxt var idi, məhsulumuzu sata bilmirdik. Bu kəndin sakinlərindən bayaq kim bilirdi ki, mən bal istehsal edirəm? Onlar da balın müəyyən bir hissəsini alırdılar. İndi isə məhsulumuzu ailə təsərrüfatı məhsulları, arıçılıq məhsulları – bal festivallarında, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında və bazarlarımızda sərbəst şəkildə, özümüzün müəyyənləşdirdiyimiz qiymətə sata bilirik. Abbas Məmmədov “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli Sərəncamı ilə arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 2018-ci il də daxil olmaqla, 5 il müddətində ildə 10 manat məbləğində subsidiya müəyyən edilməsini yüksək dövlət qayğısı kimi dəyərləndirdiyini, bunun, həqiqətən, kəndlərdə yaşayan insanların arıçılığa meylinin artmasında böyük rolu olacağını qeyd etdi.

Zəhmətkeş ailə arıçılıqdan başqa digər təsərrüfat işləri ilə də məşğul olur. Onların 2,2 hektar buğda əkinləri, həyətlərində 50-60 badam ağacı, meyvə-tərəvəz, çiyələk sahələri, üzüm bağları var. Bunlarla yanaşı, onlar həm də 3 inək, 1 dana da saxlayırlar. Bir sözlə, ailə öz süfrəsinə çeşid-çeşid keyfiyyətli məhsulları əlinin əməyi ilə düzür, çox az sayda ərzaq almaq üçün mağazaya üz tutur.

Bu nümunəvi ailədə həm də gözəl övladlar böyüyür. Qızları Sevinc 640 balla Azərbaycan Tibb Universitetinə qəbul olunub, Müalicə işi ixtisası üzrə 3-cü kursda, oğulları Xəyal isə İstanbul Universitetinin Kimya mühəndisliyi fakültəsinin 2-ci kursunda təhsil alır. Həm zəhmətkeş qadın, həm də gözəl ana olan Qalina övladları haqqında ağızdolusu danışır, onlarla qürur duyur. Deyir ki, biz onların ehtiyaclarını ödəmək üçün bu qədər zəhmətə qatlaşırıq. Hər ay onlara pul, istehsal etdiyimiz məhsullardan göndəririk.

Azərbaycan dilində çox səlis danışan qadının övladlarının bugünkü uğurları onun bu dili gözəl əxz etməsinin nəticəsidir. Bir ana kimi onların dərsləri ilə maraqlanması, özünün də dediyi kimi, müəllimləri ilə mütəmadi əlaqə saxlaması belə savadlı, dünyagörüşlü övladların yetişməsinə səbəb olub.

Xeyir-şərdə yaxından iştirak etməsi isə onu bu kəndin insanlarına sevdirib. Qonşularının hamısı ondan razılıq edirlər: “Elə bir işimiz olmaz ki, Qalina kömək əlini uzatmasın”.

Qalina özü isə burada yaşadığı illərin təəssüratlarını bizimlə belə bölüşdü: “Buranı çox sevirəm. Mətbəxinizlə məni qonşularım tanış ediblər, rəngarəng və çox ləzzətlidir. Sizin milli yeməkləri çox yaxşı bişirirəm. Gözəl toy adətləriniz var. “Xınayaxdı” mərasimi mənim üçün o qədər maraqlıdır ki… Yas mərasimlərinizdə israfçılığın aradan qaldırılması çox yaxşı haldır. Sizdə ən çox xoşuma gələn xeyirdə və şərdə birliyin olmasıdır”.

Bəli, Sələsüzə gedişimizlə həm nümunəvi ailə təsərrüfatı yaratmış iki zəhmətsevərlə, həm də onların simasında bir-birinə sadiq həyat yoldaşı, qayğıkeş valideynlərlə, yaşadıqları kənddə halallıqları, səmimiyyətləri ilə sevilən insanlarla tanış olduq. Həm yaratdıqları təsərrüfatları, həm də nümunəvi ailələri ilə bu insanlar alqışa, təqdirəlayiqdirlər. Onlar hər bir kəndliyə, ailəyə nümunədirlər. Məmmədovlar ailəsi kimi...

**Mətanət MƏMMƏDOVA**

***Bu gün şəhərimizin ticarət obyektlərini rəngarəng görünüşlü dondurma çeşidləri bəzəyir. Həmçinin muxtar respublikada fəaliyyət göstərən ictimai iaşə obyektlərində də müştərilərə ləziz dondurmalar təklif olunur. Diqqətçəkici məqam həm də ondadır ki, əvvəllər ticarət obyektlərində yerli dondurma növləri tək-tük gözə dəyirdisə, indi Naxçıvanda istehsal olunan dondurma çeşidləri çoxluq təşkil edir. Sakinlərin əksəriyyəti yerli istehsal növlərinə üstünlük verirlər. Bunu isə həmin dondurmalara qatqının az vurulması, tərkibinin daha çox təbii məhsullarla zənginliyi ilə izah edirlər.***

İstehsal müəssisələri

# Yay günlərinin əvəzsiz neməti – *dondurma*

## *Naxçıvanda bu təamın ləziz növləri istehsal edilir*



Naxçıvanda dondurma istehsalı ilə məşğul olan ixtisaslaşmış müəssisələr fəaliyyət göstərir. Həmin ünvanlardan biri də Naxçıvan şəhərindəki “Nur qida”dır. 2003-cü ildə yaradılan müəssisədə keyfiyyətli məhsul istehsalı üçün hər cür imkanlar vardır. Burada yaradılan şərait və istehsal prosesi ilə yaxından tanış olmaq üçün ötən günlərdə adıçəkilən ünvanda olduq. Dondurma mövsümünün başlanması burada iş prosesini də sürətləndirib. İşçilər gündən-günə artan tələbatı dolğun ödəmək üçün səylə çalışırlar.

Müəssisənin rəhbəri Razim Rzayev bizimlə söhbətində bildirdi ki, muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində mühüm addımların atılması təqdirəlayiq haldır. Yaradılan əlverişli biznes mühiti onun da müəssisə quraraq sahibkarlıq fəaliyyətinə başlamasına stimul olub. Artıq uzun illərdir ki, keyfiyyətli məhsul istehsal etməklə həm əhaliyə yüksək xidmət göstərir, həm də muxtar respublika iqtisadiyyatına töhfə verməyə çalışır. “Nur qida”nın ləziz dondurmaları 15 ildir, süfrələrin bəzəyinə çevrilib. Çünki bu dondurmalar həm keyfiyyətli, həm də sərfəli qiyməti ilə seçilir.

Müəssisədə xammal və hazır süd məhsullarının istehsalı üçün müasir standartlara uyğun texnoloji avadanlıqların quraşdırılması rəqabətqabiliyyətli məhsul istehsalına imkan verir. Dondurma çeşidlərinin ayrı-ayrı ünvanlara vaxtında çatdırılması işi də diqqətdə saxlanılır. Belə ki, tələbata uyğun istehsal edilən məhsullar gün ərzində marketlərə, iaşə obyektlərinə paylanılır. Daşınmalar zamanı soyuducu kameralarla təmin olunmuş nəqliyyat vasitələrindən istifadə edilir, mütəmadi olaraq istehlakçıların tələbləri və fikirləri öyrənilir.

Müəssisədə olarkən istehsal prosesini də izləmə imkanı əldə etdik. Burada istehsal avtomatik şəkildə mərhələlərlə həyata keçirilir. Qəbul edilən təbii süd əvvəlcə nasos vasitəsilə qazanlara vurulur, daha sonra 82 dərəcə temperaturda bişirilir. Sonrakı mərhələdə soyuq su vasitəsilə temperatur 60 dərəcəyə endirilir. Xüsusi avadanlıqla parçalanan süd saxlama qazanlarına ötürülür. Burada mənfi temperaturda 12 saatdan az olmayaraq saxlanılır. Daha sonra taralara qablaşdırılır, üzərinə tərkibi, istehsal tarixi və istifadə müddəti göstərilən etiket vurulur. Müəssisədə, ümumilikdə, 5 çeşiddə dondurma istehsal olunur. 0,35, 0,55, 0,65, 0,5 qram və 1 kiloqram çəki taralarda bazara çıxarılan dondurmalar geniş alıcı kütləsi qazanıb.

İstehsal prosesi ilə tanışlığımızda sanitar-gigiyenik və texniki təhlükəsizlik qaydalarına da ciddi əməl edildiyinin şahidi olduq.

Müəssisə rəhbəri onu da bildirdi ki, hər bir alıcı dondurma alarkən mütləq məhsulun saxlanma şəraitini, tərkibini, istehsal müddətini göstərən etiketi oxumalıdır. “Nur qida” dondurmaları mənfi 18 dərəcəyədək temperaturda saxlanılmalı və istifadə müddəti ən çox 60 gün olmalıdır. Müəssisənin istehsal etdiyi dondurmaların üzərində saxlama müddəti normativ sənədlərlə müəyyən edilmiş çərçivədə göstərilir. İstehsal olunan dondurmaların uyğunluq sertifikatı da vardır.

Bu gün hər kəsin sevimli təamına çevrilən dondurmanın faydalı xüsusiyyətləri çoxdur. Belə ki, mütəxəssislərin sözlərinə görə, dondurmanın tərkibində protein, karbohidrat, yağ kimi maddələrlə birlikdə A, B, C, D və E qrupu vitaminlər, həmçinin maqnezium, fosfor, dəmir və sair minerallar olur. Bunların da orqanizmə çox böyük xeyri var. Həmçinin onlar ağ və qəhvəyi rənglərdə olan dondurmalara üstünlük verilməsini məsləhət görürlər. Çünki bu tip dondurmaların tərkibində rəng qatqıları çox olmur. Dondurma alarkən onun iyinin və dadının bu növ məhsula xas olmasına da diqqət edilməlidir.

Dondurma isti yay günlərində məişətimizdə geniş istifadə olunur. Dondurma süfrəsi indi mehribanlıq, dostluq, səmimi sirdaşlıq masasıdır. Dondurma bizim milli kulinariyamızın bir elementinə çevrilib.

Ən ləziz dondurma ilə yayın istisində ürəklərini sərinlətmək istəyənlər isə “Nur qida” kimi keyfiyyətli Naxçıvan dondurmalarına üstünlük verirlər.

**Nail ƏSGƏROV**

# Aqrar sahə diqqətdə saxlanılıb

2018-ci ilin iyun ayında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin iş planına uyğun olaraq bir sıra işlər görülüb. Belə ki, muxtar respublikada aparılmış yazlıq kartof, tərəvəz, bostan, paxlalılar, tütün və yem bitkiləri əkinlərinə aqrotexniki qaydada qulluq edilməsi, meyvə və üzüm bağlarında həyata keçirilən becərmə tədbirləri barədə torpaq mülkiyyətçilərinin maarifləndirilməsi, tütünçülüyün inkişaf etdirilməsi məqsədilə görüşlər keçirilib.

Muxtar respublikamızda ot, taxıl biçini kampaniyası dövründə yanğın təhlükəsizliyi qaydalarına əməl edilməsi məqsədilə Kənd Təsərrüfatı və Fövqəladə Hallar nazirliklərinin təsdiq etdikləri tədbirlər planına uyğun olaraq aid dövlət orqanlarının əməkdaşları ilə birgə müşavirələr keçirilib.

Nazirliyin mütəxəssisləri tərəfindən muxtar respublikada hüquqi və fiziki şəxslərə məxsus təsərrüfatlarda bitkilərin zərərverici və xəstəliklərə yoluxmasını müəyyənləşdirmək məqsədilə müşahidələr aparılıb və zərurət yaranan yerlərdə kompleks mübarizə tədbirlərinin həyata keçirilməsində sahibkarlara əməli köməkliklər göstərilib. Nazirliyin tabeliyində olan Toxumçuluq idarəsinin laboratoriyasına fermerlər tərəfindən gətirilən toxumlar analizdən keçirilərək nəticəsi analiz aktı formasında onlara təqdim olunub.

Heyvandarlığın inkişafı istiqamətində də tədbirlər görülüb. Belə ki, yay otlaqlarından səmərəli istifadə edilməsi, mal-qara arasında qan parazitar (qızdırma) xəstəliklərinin qarşısının alınmasında profilaktik və müalicə tədbirlərinin aparılmasının əhəmiyyəti haqqında sahibkarlar məlumatlandırılıblar. Mütəmadi olaraq ay ərzində muxtar respublikada arıçılığın, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı maarifləndirmə işləri aparılıb və yerlərdə müşavirələr keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Memarlıq incilərimiz*

# Qarabağlar türbəsini inşa etdirən qadın kim olub



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 4 iyul tarixli Sərəncamına əsasən bərpa olunan Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksinin açılış mərasimində iştirak edən Ali Məclisin Sədri cənab Vasif Talıbov çıxışında türbə kompleksi haqqında tədqiqatların davam etdirilməsini, yeni məlumatlar əldə olunmasını və geniş ictimaiyyətə çatdırılmasını tədqiqatçılar qarşısında mühüm bir vəzifə kimi qoymuşdur.***

Çıxışında ***"Bu gün biz abidələri təkcə mədəni irsimiz kimi yox, həm də dövlətçilik tariximizin bir hissəsi kimi öyrənməliyik"*** tövsiyəsi ilə tarix-mədəniyyət abidələrinin tədqiqində yeni istiqamət müəyyənləşdirən Ali Məclisin Sədri demişdir: ***"Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Mədəniyyət Nazirliyi ilə birlikdə Qarabağlar Türbə Kompleksində tədqiqat işlərini daha da genişləndirməli, tarixi materiallar toplanmalı, yeni elmi yanaşmalar ortaya qoyulmalı, bura eksponatlarla daha da zənginləşdirilməlidir".*** Həmçinin qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu "Qarabağlar Türbə Kompleksi" kitabının nəşrini başa çatdırmalı, abidənin tanıdılması istiqamətində tədbirlər görülməli, maarifləndirmə işi aparılmalıdır.

Ali Məclis Sədrinin qarşıya qoyduğu bu vəzifələrin uğurlu həllinə nail olmaq üçün alimlərimiz Qarabağlar Türbə Kompleksi ilə əlaqədar tədqiqatları genişləndirməli və onun haqqında xalqımıza yeni, hərtərəfli və obyektiv məlumatlar çatdırmalıdır. Elmi ictimaiyyət və əhali arasında kompleksin özəyini təşkil edən türbəni inşa etdirən qadın haqqında müxtəlif fikirlər olduğu üçün biz, ilk olaraq, onun haqqında fikirlərimizi geniş oxucu auditoriyasına çatdırmaq istərdik.

XII-XIV əsrlərdə indiki Kəngərli rayonunun Qarabağlar kəndində inşa edilən və yerləşdiyi yaşayış məskəninin adı ilə şərti olaraq Qarabağlar Türbə Kompleksi adlandırılan bu abidə XIX yüzilliyin 30-cu illərindən tədqiqatçıların diqqətini cəlb edib. Həmin vaxtdan başlanan tədqiqatlar XX yüzillikdə və XXI yüzilliyin əvvəllərində də davam etdirilib, abidə müxtəlif tədqiqatçılar tərəfindən memarlıq və epiqrafik baxımdan dəfələrlə tədqiq olunub. Abidəni tədqiq edən memarlar onun memarlıq quruluşu haqqında yekdil fikirdə olsalar da, kompleksə daxil olan abidələrin üzərində qalan kitabələr, onların məzmunu haqqında müxtəlif fikirlər söylənir. Başqa sözlə desək, çox hissəsinin dağılması səbəbindən bu kitabələri hərə bir cür oxuduğu üçün, nəticədə, türbə kompleksinin təyinatı, sifarişçisi, kimin şərəfinə inşa edilməsi və sair haqqında ziddiyyətli fikirlər yaranıb. Bu da, öz növbəsində, tədqiqatçılar, xüsusilə epiqrafika ilə məşğul olmayan alimlər arasında fikirayrılığına gətirib çıxarıb, yanlış nəticələrin yaranmasına səbəb olub. Bu, özünü ən çox kompleksə daxil olan və giriş qapısı rolunu oynayan qoşa minarəli baştağın üzərində yarımdağılmış vəziyyətdə qalan və kompleksə daxil olan türbəni inşa etdirən şəxsin – qadının adı ilə bağlı olan kitabədə göstərir.

Qarabağlar Türbə Kompleksinə daxil olan qoşa minarəli baştağın üzərindəki kitabə dağılmış, zəmanəmizədək çox az hissəsi qalmışdır. Müxtəlif vaxtlarda tədqiqatçılar tərəfindən öyrənilmiş həmin kitabəni və kitabədə adı qeyd olunan qadının adını hər tədqiqatçı bir cür oxuyub. Həmin qadının adını İsa Əzimbəyov (Məddah) Quzey xatın, Mirbağır Mirheydərzadə və Məhəmməd Rəsizadə Kevzi xatın, Konstantin Smirnov Kuzi xatın kimi oxuyub.

Kitabənin ən mükəmməl oxunuşunu tarix üzrə fəlsəfə doktoru Əjdər Ələsgərzadə həyata keçirib, orada adı xatırlanan qadının Cahan Qudi xatın olduğunu müəyyən edib. Alim 1947-ci ildə nəşr etdirdiyi məqaləsində kitabənin mətnini "Bu binanın tikilməsini ... Cahan Qudi xatın əmr etdi" kimi təqdim edib. Əjdər Ələsgərzadədən, təxminən, 50 il sonra kitabəni tədqiq edən AMEA-nın müxbir üzvü Məşədixanım Nemətin 2001-ci ildə elmi dövriyyəyə daxil etdiyi monoqrafiyasında verdiyi məlumatdan aydın olur ki, kitabənin mətni Əjdər Ələsgərzadədə olduğu kimidir. Biz də əksər hissəsi dağılsa da, qalan hissəsi çox aydın şəkildə oxunan kitabəni bir neçə dəfə yerində tədqiq edən bir tədqiqatçı kimi deyə bilərik ki, kitabənin Əjdər Ələsgərzadə və Məşədixanım Nemət tərəfindən həyata keçirilən oxunuşu düzgündür və orada xatırlanan qadının adı Qudi xatındır.

Qeyd etmək lazımdır ki, bəzi tarixi və memarlıq ədəbiyyatlarında da bu kitabədə özünə yer alan qadının adı ilə əlaqədar məlumat verilir və həmin qadının Elxani hökmdarı Hülakü xanın oğlu Abaqa xanın arvadı Qoday xatın olması fikri irəli sürülüb. Düşünürük ki, burada bir məsələyə aydınlıq gətirməkdə fayda vardır. Bu da Qudi xatının kimliyi məsələsidir. Bəzi tədqiqatçılar bu qadının Elxani hökmdarlarından Abaqa xanın arvadı Koday və ya Qoday xatın olması fikrindədir. Ancaq XIII-XIV əsrlərdə yaşayıb, Elxanilər sarayında həkim və vəzir işləmiş Fəzlullah Rəşidəddinin "Cami ət-Təvarix" ("Tarixlər toplusu") əsərində Abaqa xanın arvadları haqqında verdiyi məlumatlardan görünür ki, onun Koday və ya Qoday xatın adlı arvadı olmayıb. Ona görə də bu fikirlə razılaşmaq olmaz. Bizcə, qaynaqlarda Kutuy, bəzən də Quti xatın adı ilə xatırlanan qadın Abaqa xanın deyil, Elxanilər dövlətinin banisi Hülakü xanın arvadı, Abaqa xanın isə anasıdır. Bu fikri bizə qədər gəlib çatmış qaynaqlar da təsdiq edir. Fəzlullah Rəşidəddinin yazdığına görə, Hülakülər (Elxanilər) dövlətinin banisi Hülakü xanın arvadlarından birinin adı Kutuy xatın olub. Fəzlullah Rəşidəddinin adıçəkilən əsərinin ikinci cildində bəzən "Quti xatın" kimi xatırladığı, sarayda böyük nüfuza malik olan Kutuy xatın ağlı və bacarığı sayəsində oğlu Sultan Əhmədin iki il iki ay on üç gün davam edən hakimiyyəti dövründə (1282-1284-cü illər) dövlətin idarə olunmasında iştirak edib. Fikrimizcə, qoşa minarəli baştağın kitabəsində adıçəkilən Qudi xatın mənbələrdə Kuti və ya Kutuy xatın şəklində xatırlanan qadınla eyni şəxsdir.

Kitabədə tarix qalmayıb. Ancaq minarələri tədqiq edən memarlar onların XII əsrdə inşa edilməsi fikrindədirlər. Akademik Əbdülvahab Salamzadə və sənətşünaslıq doktoru Kamil Məmmədzadənin fikrincə, bu minarələri birləşdirən baştağ isə sonralar, XIV əsrdə tikilib. Bu fikri baştağın üzərindəki kitabədə Hülakü xanın arvadı Qudi xatının adının qeyd edilməsi də təsdiq edir. Bu qeydə əsasən də aydın olur ki, qoşa minarələri birləşdirən baştağ həmin qadının yaşının qocalıq dövrünə təsadüf edən XIV əsrin 30-cu illərində inşa edilib.

Bir məsələnin üstündə xüsusi dayanmaq istərdik. Müasir dövrdə mövcud ədəbiyyat materiallarından istifadə edərək Qarabağlar Türbə Kompleksi haqqında məqalə hazırlayan bəzi müəlliflər Qarabağlar türbəsinin Qudi xatının şərəfinə inşa edildiyini yazırlar. Halbuki kitabədən çox aydın şəkildə məlum olur ki, türbə Qudi xatının şərəfinə yox, onun əmri ilə tikilib. Bu iki fikrin arasında isə çox fərq vardır. Abidə kiminsə şərəfinə tikildikdə o, həmin adamın qəbri üzərində inşa olunurdu. Bunun ən gözəl nümunəsini Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində 1162-ci ildə inşa etdiyi Yusif Küseyr oğlu və 1186-cı ildə ucaltdığı Möminə xatın türbəsinin timsalında görürük. Hər iki abidənin kitabəsindən aydın olur ki, bu türbələr Yusif Küseyr oğlunun və Möminə xatının xatirəsinə – şərəfinə inşa etdirilib. Ona görə də birinci tarixi abidə elmi ədəbiyyatda Yusif Küseyr oğlu, digəri isə Möminə xatın türbəsi adlandırılır. Bəzən əhali arasında Möminə xatın türbəsinə "Atabəylər türbəsi" də deyilir. Bu isə əhalinin fikrincə, türbənin sərdabəsində Möminə xatından sonra əri Şəmsəddin Eldənizin və oğlu, Azərbaycan Atabəyləri dövlətinin ikinci hökmdarı Atabəy Məhəmməd Cahan Pəhləvanın da dəfn olunması, həmçinin abidənin Atabəy hökmdarlarının əmri əsasında inşa edilməsi ilə əlaqədardır.

Məsələyə bu baxımdan yanaşdıqda aydın olur ki, Qarabağlar türbəsinin Hülakülər dövlətinin banisi Hülakü xanın arvadı Qudi xatının şərəfinə inşa edilməsi fikri yanlışdır. Çünki Qudi xatın bu türbənin sərdabəsində dəfn olunmayıb, onun kiminsə şərəfinə tikilməsini əmr edib. Təəssüf ki, kitabənin çox hissəsi dağılaraq məhv olduğu üçün bu məsələni, yəni türbənin kimin şərəfinə inşa etdirilməsini müəyyən etmək mümkün olmayıb. Həmçinin burada bir fikri də vurğulamaq lazımdır ki, bəzən şifahi danışıqlarda, hətta nəşr olunan kitab və məqalələrdə Qarabağlar türbəsi "Qudi xatın türbəsi" adlandırılır. Yuxarıda verdiyimiz izahdan göründüyü kimi, türbənin belə adlandırılması onun tikilməsini əmr edən qadının adı ilə əlaqədardır.



***Bütün bu deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Qarabağlar Türbə Kompleksinə daxil olan qoşa minarəli baştağın üzərində "Bu binanın tikilməsini... Cahan Qudi xatın əmr etdi" sözləri yazılıb. Kitabədən aydın olur ki, kompleksin özəyini təşkil edən və Azərbaycan memarlığının ən gözəl nümunələrindən olan türbə Elxani hökmdarı Hülakü xanın arvadı Qudi xatının şərəfinə deyil, onun əmri ilə inşa edilib. Ona görə də kitabənin əsas hissəsinin dağılması səbəbindən abidənin kimin şərəfinə inşa edildiyini aydınlaşdırmaq mümkün olmadığı üçün onun yerləşdiyi yaşayış məskəninin adı ilə Qarabağlar türbəsi, kompleksin isə Qarabağlar Türbə Kompleksi adlandırılması daha məqsədəuyğundur.***

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# *"Axtarışlar"* jurnalının yeni nömrəsi işıq üzü görüb

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təsis etdiyi "Axtarışlar" jurnalının cari ilə olan ikinci nömrəsi işıq üzü görüb.***




Folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix sahələrində aparılan tədqiqatların yer aldığı elmi-ədəbi toplunun növbəti sayında Naxçıvan Bölməsi, AMEA-nın Dilçilik İnstitutu, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Bakı Dövlət Universiteti və digər elm və təhsil müəssisələrində çalışan əməkdaşların müxtəlif mövzularda elmi məqalələri əksini tapıb.

Yeni sayda "Heydər Əliyev irsində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi məsələləri", "Naxçıvan Türk-İslam mədəniyyəti abidələri", "Mir Cəlalın hekayələrində sosial-mədəni problemlərin əksi (yazıçının həkimlərə həsr edilmiş hekayələri əsasında)", "Hüseyn Cavid obrazı Azərbaycan dramaturgiyasında (1980-1990-cı illər)", "Klassik ədəbiyyatımız milli sərvətimizdir", "Naxçıvanda miladdan öncə yaşamış Skif türkləri ilə bağlı etnooykonimlər", "Şamil Qazıyev rəngləri Naxçıvan teatr səhnəsində" və digər orijinal elmi məqalələr oxuculara təqdim olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

***Dövlət İmtahan Mərkəzi iyulun 10-da V ixtisas qrupu üzrə ali məktəblərə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə əvvəlki illərin məzunları üçün qəbul imtahanı, ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi və eksternat qaydasında təhsil sənədi almaq istəyənlər üçün buraxılış imtahanı keçirib.***

# Növbəti imtahanlar keçirilib



İmtahanlar respublikanın 9 şəhər və rayonunda – Bakı, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmazda 50 imtahan mərkəzində təşkil olunub və imtahanda, ümumilikdə, 26014 nəfər iştirak edib.

İmtahanlarda ali təhsil müəssisələrinin V ixtisas qrupuna (xüsusi qabiliyyət tələb edən ixtisaslara) və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) sənəd vermiş 18 min 116 nəfər əvvəlki illərin məzunları, ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) sənəd vermiş 4437 nəfər əvvəlki illərin məzunları, eksternat qaydasında attestasiyada iştirak etmək üçün qeydiyyatdan keçmiş, həmçinin üzrlü səbəbdən buraxılış imtahanlarında iştirak edə bilməmiş cari ilin məzunu olan 847 nəfər IX, 2614 nəfər isə XI sinif şagirdləri iştirak edib.

İmtahanların idarəolunması üçün 170 imtahan rəhbəri, 2073 nəzarətçi-müəllim cəlb edilib.

Məlumat üçün bildirək ki, Naxçıvan şəhərində imtahanlar 7 və 14 nömrəli, Heydər Əliyev adına tam orta məktəblərdə keçirilib. 136 nəzarətçi, 10 imtahan rəhbəri, 3 ümumi rəhbərin iştirak etdiyi imtahanda nəzarətçilərin hamısı muxtar respublikadan, 10 imtahan rəhbərindən 3-ü Dövlət İmtahan Mərkəzinin, 7-si regional imtahan rəhbərləri bazasından olub. Ümumilikdə, 1464 abituriyent imtahan verib.

İmtahanlar bütün binalarda eyni vaxtda – saat $10^{00}$-da başlanıb. Ümumi orta təhsil bazasından sənəd verənlər üçün qəbul imtahanının II mərhələsinin müddəti 1 saat 30 dəqiqə, tam orta təhsil bazasından sənəd verənlər üçün 2 saat 15 dəqiqə, eksternat qaydasında təhsil sənədi almaq istəyənlər üçün isə buraxılış imtahanının müddəti 2 saat 45 dəqiqə davam edib.

İmtahanların nəticələri bir neçə gün sonra Dövlət İmtahan Mərkəzinin rəsmi internet saytında *(www.dim.gov.az)* yerləşdiriləcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**



Xalq təqvimi

# Xırman mövsümü

**Ta qədimdən maldar və əkinçi ata-babalarımız il ərzində görülən işlərin vaxtını müəyyənləşdiriblər. Bu xalq təqvimində yay aylarının da xüsusi yeri olub. Məhz bu dövrdə biçin və döyüm işləri yerinə yetirilər, min bir zəhmətlə hasilə gələn taxılın tədarükünə başlanılardı. Etnoqraf Teymur Bünyadov qeyd edir ki, yayın orta ayı "qorabişirən" ay adlanır. Belə ki, iyun ayının ortalarından taxıl biçini başlayır.**

Ta qədimdən biçilən taxıl dərz bağlanar və bu dərzlər döyülmək üçün ayrılmış xüsusi əraziyə – xırmana aparılardı. Teymur Bünyadov qeyd edir ki, biçinçinin dörd əl tutumu biçdiyi sünbülə "bafa" deyirlər. Dörd bafa sünbül isə "bir dərz" adlanır. Etnoqraf Asəf Orucovun qənaətinə görə isə, beş bafa "bir dərz" adlanır. Başqa bir etnoqrafik mənbəyə görə, biçinçi hər dəfə orağı hərlədikcə biçilən taxıla "dəstə", üç dəstəyə isə "çəmən" deyirlər. Üç çəməni bir yerə bağlayırlar ki, bu da "bağ" adlanır. Səkkiz bağ bir qoşqu heyvanının yüküdür. Ona "xalvar" deyirlər. Bir bayatıda deyilir:

*Biçinçi bafa bağlar,*
*Biçdikcə bafa bağlar.*
*Bir yar vəfasız çıxsa,*
*Kim ona vəfa bağlar?*

Xırman yeri seçən zaman ərazinin külək tutan yerdə, torpağının daşçınqılsız, bitki üçün münbit olmayan kol-kossuz yerdə olmasına fikir verilərdi. Biçilmiş taxıl xırmana at, öküzə yüklənib daşınsa da, düzən yerlərdə öküz arabalarına üstünlük verilərdi. Çünki araba ilə daşınan zaman sünbül daha az itkiyə gedirdi. Öküz arabalarının banı və təkərləri taxtadan düzəldilərdi. Taxta təkərlərin üzərinə bir-iki santimetr qalınlıqda dəmir çənbər (halqa, tovqi) keçirilib üç-dörd yerdən dəmir qurşaqlarla bərkidilərdi. Adətən, xırmana ilk yük gətirən arabaçıya xələt verilərdi. Xırmana daşınan dərzlərin bağı açılar, heşan salınardı (Yəni qalın formada sahəyə sərilirdi). Heşanın yatması üçün ilkin olaraq bir neçə qaramalı boyun-boyuna bağlayar, heşan üzərində dairəvi dolandırardılar. Heşan nisbətən əzilib yatdıqdan sonra, yəni cehrə vurulduqdan sonra car-carla döyüm başlanardı. Car-car, təxminən, 2 metr uzunluqda tirin üstünə çəpəki olaraq ərsin formasında dəmirlər vurularaq düzəldilərdi. Tirin ucları qola elə birləşdirilərdi ki, qolun içərisində hərlənə bilsin. Arabanın təkər oxuna uyğun düzəldilən car-car heşan üzərində hərəkət etdikcə küləşi doğrayardı. Üçüncü mərhələdə gəm (vəl) ilə döyüm başlanardı. Vəl, adətən, ağır ağacdan (xüsusən qaraağac) hazırlanardı. Enli taxta tapmaq çətin olduğu və daşımaqda asanlıq yaratmaq üçün vəl iki hissədən düzəldilərdi. Vəlin sağ və sol tayının nisbətən sivri baş hissəsinə zəncir bağlamaq üçün halqa salınardı. Vəlin alt hissəsində çox sayda yarıq yaradılıb bunlara daş çalardılar ki, sünbülü yaxşı əzsin. Vələ iki öküz qoşardılar. Bu, "bir boyun" adlanardı. Döyümü, adətən, iki adam həyata keçirərdi. Hodaq (xodək) adlanan gənc (yeniyetmə) vəlin üzərində ayaqüstə durar, sol əli ilə müvazinətini qorumaq üçün öküzün quyruğundan tutar, sağ əli ilə isə uzun çubuqla öküzləri idarə edərdi. "Gəm çubuğu" adlanan çubuq xüsusi seçilib kəsilər, döyüm hazırlığına aid edilərdi. Öküzlər dairəvi olaraq heşanın üzərində hərlənər və taxıl döyülərdi. "Garvan" adlanan yaşlı kişi isə döyümə nəzarət edər, kənara düşən küləşi yaba (şana) ilə heşanın üstə atardı. Qeyd edək ki, şum edən zaman da hodaq-garvan olur.

Döyümdən sonra küləşi sovurub taxıldan ayırardılar. Bu iş, demək olar ki, küləklə bağlı olduğu üçün, əsasən, axşamçağı, küləkli dövrdə həyata keçirilərdi. Salavat çevirməklə, müxtəlif nəğmələrlə yeli səsləyərdilər:

*A yel baba, yel baba,*
*Qurban sənə, gəl, baba.*
*Taxılımız yerdə qaldı,*
*Yaxamız əldə qaldı.*

Döyülmüş taxılı kürəklə götürüb havaya atardılar. Külək yüngül samanı kənara aparar, tığda isə taxıl qalardı. Taxıl küləşdən nisbətən ayrıldıqdan sonra "şadara" (bir çox kəndlərimizdə "daşgir" də deyilir), iri deşikləri olan xəlbirlə taxılı ələyərdilər. Tam əzilməyən sünbüllər xəlbirdən keçməzdi. Buna "kozar" deyərdilər. Yığılan kozarı ya yenidən döyər, ya da quş və heyvanlar üçün yem kimi ayırardılar. Günəş altında çox qalan taxıl kimi, xırmanda yağışa düşən taxıl da keyfiyyətini itirərdi.

Yaydan, təxminən, bir ayı keçəndən sonra Azərbaycanda "Abrizəgan" adlı su bayramı da keçirilib. Bu bayramın taxıl biçini ilə əlaqəsi olmasa da, yayın quraq dövründə yağışı arzulayan insanlar arasında bu cür bayramı qeyd etmək inamı formalaşıb. Qədim Avesta təqviminə görə, bayram ilin dördüncü ayı olan "tir" ayının 30-cu günü (17-18 iyul) qeyd olunardı. Çay kənarında, kəhrizlərin yaxınlığında keçirilən bu bayramda yağışın süni əlamətləri yaradılar, adamlar bir-birinin üzərinə su çiləyərdilər. Qədim tarixi olan bu bayram, demək olar ki, müasir dövrdə tamamilə unudulub.

Yayın ikinci ayının bir hissəsi (iyulun 15-dən sonra) "qoradəyən" və ya "qoradöyən" dövr adlanır. Bu dövrdə üzüm qorası şəffaflaşır, yetişmək istəyir. "Dəymək" sözü yetişmək, hasilə gəlmək mənasında işlənir. Bu zaman yenicə sulanan, az şəkərli qoraları döyüb əzir, abqora düzəldərdilər. Ona görə də bu dövr "qoradəyən" və ya "qoradöyən" adlanır. Əkinçilər taxılı xırmandan tez yığışdırmağa çalışardılar. Çünki bunun ardınca payız şumu vaxtı yaxınlaşır və kənd təsərrüfatının digər sahələrində görüləsi işlər vardır.

**Zaleh NOVRUZOV**

# Əmək yarmarkasına 128 boş iş yeri çıxarılmışdı

Şahbuz şəhərindəki "Araz" kinoteatrının binasında keçirilən tədbiri rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov açaraq muxtar respublikada həyata keçirilən məşğulluq tədbirlərindən danışıb.

Bildirilib ki, əhalinin məşğulluğunun təmin edilməsində əmək yarmarkalarının xüsusi rolu var. Belə ki, məşğulluq orqanları tərəfindən işəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır və bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Cəlal Paşayev çıxışında qeyd edib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaranların marağının böyük olması onu göstərir ki, onlarda bu yarmarkalarda ixtisaslarına müvafiq iş tapmalarına böyük inam vardır.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 21 təşkilatdan 128 boş iş yerinin çıxarıldığı yarmarkada 13 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Culfa rayonunda keçiriləcək.

**Xəbərlər şöbəsi**

# 2018-ci ilin birinci yarısında muxtar respublikada 398 min 127 nəfər tibbi müayinədən keçib

Muxtar respublikamızda əhalinin sağlamlığının qorunması və tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi 2018-ci ilin ötən dövründə də diqqət mərkəzində saxlanılıb. Səhiyyə müəssisələri zəruri tibbi avadanlıq və dərman preparatları ilə təchiz olunub, tibbi xidmətin səviyyəsi yüksəldilib, 398 min 127 nəfər tibbi müayinədən keçib.

Qeyd olunan dövrdə Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin tərkibində olan Uşaq Ürək Cərrahiyyə Şöbəsinin həkim briqadası tərəfindən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində, Akademik M.Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının baş həkimi Telman İbadovun rəhbərliyi ilə 26 nəfərdən ibarət professor-həkim heyəti Şərur və Ordubad rayon mərkəzi xəstəxanalarında, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim briqadası Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Babək, Culfa, Şahbuz və Kəngərli Rayon Mərkəzi xəstəxanalarında, Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə, Bakı şəhərində fəaliyyət göstərən həkim endokrinoloq Rövşən Həsənov və "Güvən" Klinikasının 7 əməkdaşı Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində humanitar aksiyalar keçiriblər. Həmin aksiyalarda aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, ürək damarlarına stend qoyulması və digər əməliyyatlar həyata keçiriblər. Həmçinin muxtar respublika xəstəxanaları tərəfindən təşkil olunan həkim briqadaları da yerlərdə müayinələr aparıblar.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrası diqqət mərkəzində saxlanılıb, 32 min 219 uşaqda müayinə aparılıb. Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların səmərəliliyi, əhalinin yaşayış standartlarının davamlı yüksəlişi, güzəranının daha da yaxşılaşması, müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər demoqrafik vəziyyətə öz müsbət təsirini göstərib, muxtar respublikada ötən yarımildə 2 min 380 uşaq doğulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Həkim briqadaları obalardakı heyvandarlara tibbi xidmət göstəriblər

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə göstərilən səhiyyə xidməti davam etdirilir.***



Ordubad Rayon Mərkəzi Xəstəxanasının terapevt, kardioloq, cərrah, stomatoloq və pediatrlardan ibarət çoxprofilli həkim briqadası Göygöl ərazisindəki yaylaqlarda məskunlaşan heyvandarlara baş çəkib. Hazırda təkcə Əyriçay yaylağında 2 oba məskən salıb. Onların öhdəsində 5 min başa yaxın mal-qara, qoyun-quzu var. Çadırlarda Kəngərli rayonunun Çalxanqala kəndindən gəlmiş fermer və çobanların 32 ailə üzvü yaşayır. Briqadanın fəaliyyəti zamanı onların hamısı profilaktik tibbi müayinəyə cəlb olunub, pediatrik, kardioloji, cərrahi, stomatoloji müayinələr aparılıb. Yaylaqda arana nisbətən havaların sərin keçməsi səbəbindən obalardakı azyaşlı uşaqların bir qismində qulaqağrısı və yuxarı tənəffüs yollarının patologiyası müşahidə olunub, onların müalicəsi ilə bağlı lazımi dərmanlar verilib.

Ordubad Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən obalarda dezinfeksiya, dezinseksiya tədbirləri həyata keçirilib, gigiyenik qaydalara əməl olunması barədə səhiyyə maarifi işi aparılıb.

Şahbuz rayonunun heyvandarlıqla məşğul olmaq üçün münbit şəraitli yaylaqlarında təkcə yerli fermerlər deyil, həmçinin Şərur rayonunun Xanlıqlar və Kəngərli rayonunun Qarabağlar kəndlərindən və digər bölgələrdən gələn təsərrüfat sahibləri də ailəliklə oba qurub heyvandarlıqla məşğul olurlar. Onların sağlamlıqları daim diqqət mərkəzində saxlanılır. Babək Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası ərazidəki Vayxıryurd obalarında olub. Terapevt, stomatoloq və pediatrlardan ibarət həkim briqadası 4 çadırda məskunlaşan 13 nəfəri profilaktik tibbi müayinələrdən keçirib, ilkin tibbi yardım üçün dərmanlar paylanıb.

Ötən həftə Culfa Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası isə rayonun Dəmirli yaylağı ərazisində Camaldın kəndindən məskunlaşan heyvandarlara tibbi xidmət göstərib. Heyvandarlar belə xidmətə görə minnətdarlıqlarını bildiriblər.

Obalarda tibbi xidmət mövsüm boyu davam etdiriləcəkdir.

**Hüseyn ƏSGƏROV**

# Ağır atletlərimizin növbəti qələbəsi

***Xırdalan şəhərində fəaliyyət göstərən "Zirvə" klubunda ağır atletika üzrə Azərbaycan çempionatının seçmə yarışı keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən Ağır atletika bölməsinin yetirmələri Həsən Babayev və Gülcahan Əliyeva da yarışda iştirak ediblər. 11 yaş qrupunda Həsən Babayev 50 kiloqram çəki dərəcəsində birbaşa qaldırmada 48, təkanla qaldırmada isə 60 kiloqram qaldıraraq I yerə layiq görülüb. 14 yaş qrupunda Gülcahan Əliyeva 48 kiloqram çəki dərəcəsində birbaşa qaldırmada 31, təkanla qaldırmada isə 42 kiloqram qaldıraraq I yerə layiq görülüb. Qaliblərə təşkilatçıların diplom və medalları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Salayev Saleh Hüseyn oğlunun adına 3 aprel 2007-ci il tarixdə verilmiş 3242 inventar nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 494